**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**039/533

**Bakı şəhəri** "17" iyun 2026-cı il

**Bakı şəhəri, Suraxanı rayonu, Binə qəsəbəsi ərazisində yerləşən yeni inşa edilmiş heyvan bazarının fəaliyyətinə icazə verilməsi haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın (bundan sonra – Qaydalar) tələblərinə uyğun olaraq Bakı şəhəri, Suraxanı rayonu, Binə qəsəbəsi ərazisində yerləşən fiziki şəxs Piriyev Rabil Fikrət oğluna məxsus yeni inşa edilmiş heyvan bazarında Qaydaların tələblərinə uyğunluğun qiymətləndirilməsi məqsədilə Agentliyin 12.12.2025-ci il tarixli 3-2Ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən yerində baxış və qiymətləndirmə aparılmışdır. Aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, həmin heyvan bazarında Qaydaların tələblərinin təmin edildiyi, bioloji təhlükəsizlik və dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradıldığı müəyyən edilmişdir. Eyni zamanda müəyyən edilmişdir ki, heyvan bazarında heyvanların qəbulu, saxlanılması, baytarlıq baxışının təşkili və hərəkətinə dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün tələb olunan infrastruktur və texniki imkanlar yaradılmışdır.

Aparılmış qiymətləndirmənin nəticələri nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

**1.** Bakı şəhəri, Suraxanı rayonu, Binə qəsəbəsi ərazisində yerləşən fiziki şəxs Piriyev Rabil Fikrət oğluna məxsus heyvan bazarının Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın tələblərinə uyğun olduğu və Agentliyin 12.12.2025-ci il tarixli 3-2Ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən müsbət qiymətləndirildiyi nəzərə alınaraq, 17.06.2026-cı il tarixindən etibarən həmin heyvan bazarının fəaliyyətinə icazə verilsin.

**2.** Agentliyin Bakı regional bölməsi Bakı şəhəri, Suraxanı rayonu, Binə qəsəbəsi ərazisində yerləşən fiziki şəxs Piriyev Rabil Fikrət oğluna məxsus heyvan bazarında baytarlıq-sanitariya və bioloji təhlükəsizlik tədbirlərinə daimi dövlət baytarlıq nəzarətinin həyata keçirilməsini təmin etsin.

**3.** Agentliyin Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən fiziki şəxs Piriyev Rabil Fikrət oğluna qeyd olunan heyvan bazarının fəaliyyətinə icazə verilməsi barədə məlumat verilsin.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
17.06.2026

**4.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu Qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin və görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirsin.

**5.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, eləcə də aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**6.** Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

17.06.2026